# Bariatrik-metabolik cərrahi əməliyyat keçirmiş pasientlərin psixi sağlamlığının xüsusiyyətləri

**Cahangir Novruzəli oğlu Ağazadə**
*Azərbaycan Tibb Universiteti*
**E-mail:** cahangirağhazada@mail.com

**Rəyçilər:** t.ü.f.d., dos. S.Ə.-P. Katibli,
t.ü.f.d. T.İ. Ömərov

**Acar sözlər:** psixi sağlamlıq, tədqiqat, xəstəlik, pasiyent, araşdırma, əməliyyat
**Ключевые слова:** психическое здоровье, исследование, болезнь, пациент, исследование, операция
**Key words:** mental health, research, disease, patient, research, operation

Apardığımız tədqiqatda iştirak edən üzvlər həm əsas, həm də nəzarət qrupunu təşkil etmişdir. Tədqiqata daxil etdiyimiz 30 pasiyentin əməliyyatdan əvvəl və sonrakı nəticələri müqayisə edilmişdir.

İlk olaraq DASS21-in əməliyyatdan əvvəlki nəticələrinə baxılmışdır:

DASS21 şkalasının nəticələrinə görə əməliyyatdan əvvəl 7 (23,3%) nəfərdə normal, 10 (33,3%) nəfərdə yüngül dərəcəli depressiya, 11 (36,7%) nəfərdə orta dərəcəli, 2 (6,7%) nəfərdə isə ifadə olunmuş depressiya aşkarlanmışdır. Ağır dərəcəli depressiyaya rast gəlinməmişdir.

DASS21 şkalasının nəticələrinə görə 1 (3,3%) nəfərdə normal, 3 (10%) nəfərdə yüngül, 7 (23,3%) nəfərdə orta, 12 (40%) nəfərdə ifadə olunmuş, 7 (23,3%) nəfərdə ağır dərəcəli təşviş səviyyəsi aşkar olunmuşdur.

DASS21 şkalasının nəticələrinə əsasən 3 (10%) nəfərdə normal, 8 (26,7%) nəfərdə yüngül, 10 (33,3%) nəfərdə orta, 8 (26,7%) nəfərdə ifadə olunmuş, 1 (3,3%) nəfərdə ağır dərəcəli stress halı aşkarlanmışdır.

Daha sonra DASS21-in əməliyyatdan sonrakı nəticələrinə baxılmışdır:

DASS21 şkalasının bəndinin nəticələrinə əsasən 21 (70%) nəfərdə normal, 7 (23,3%) nəfərdə yüngül, 2 (6,7%) nəfərdə orta dərəcəli depressiya halı aşarlanmışdır. İfadə olunmuş və ağır dərəcəli depressiyaya rast gəlinməmişdir.

DASS21 şkalasının bəndinin nəticələrinə əsasən 21 (70%) nəfərdə normal, 7 (23,3%) nəfərdə yüngül, 2 (6,7%) nəfərdə orta dərəcəli depressiya halı aşarlanmışdır. İfadə olunmuş və ağır dərəcəli depressiyaya rast gəlinməmişdir.

DASS21 şkalasının nəticələrinə əsasən 12 (40%) nəfərdə normal, 16 (53,3%) nəfərdə yüngül, 2 (6,7%) nəfərdə orta, dərəcəli stress halı aşkarlanmışdır. İfadə olunmuş və ağır dərəcəli təşviş səviyyəsi aşkar olunmamışdır.

Həmçinin, əməliyyatdan əvvəl LSP16 şkalasının nəticələri nəzərdən keçirilmişdir:

LSP16 şkalasının A bəndinin nəticələrinə əsasən, 12 (40%) nəfərdə yüngül, 7 (23,3%) orta, 11 (36,7%) nəfərdə isə ağır çətinliklər aşkar olunmuşdur.

LSP16 şkalasının B bəndinin nəticələrinə əsasən, 8 (26,7%) nəfərdə yüngül, 12 (40%) orta, 10 (33,3%) nəfərdə isə ağır çətinliklər aşkar olunmuşdur.

LSP16 şkalasının C bəndinin nəticələrinə əsasən, 13 (43,3%) nəfərdə yüngül, 17 (56,7%) orta çətinliklər aşkar olunmuşdur. Ağır səviyyədə çətinliyə rast gəlinməmişdir.

LSP16 şkalasının D bəndinin nəticələrinə əsasən, 9 (30%) nəfərdə yüngül, 14 (46,7%) orta, 7 (23,3%) nəfərdə isə ağır çətinliklər aşkar olunmuşdur.

LSP16 şkalasının A bəndinin nəticələrinə əsasən, 18 (60%) nəfərdə yüngül, 12 (23,3%) orta səviyyədə çətinliklər aşkar olunmuşdur. Ağır çətinlik səviyyəsi aşkar olunmamışdır.

LSP16 şkalasının B bəndinin nəticələrinə əsasən, 22 (73,3%) nəfərdə yüngül, 8 (26,7%) orta səviyyədə çətinliklər aşkar olunmuşdur. Ağır səviyyəli çətinlik halına rastlanılmamışdır.

LSP16 şkalasının C bəndinin nəticələrinə əsasən, 23 (76,7%) nəfərdə yüngül, 7 (23,3%) orta səviyyədə çətinliklər aşkar olunmuşdur. Ağır səviyyəli çətinlik halına rastlanılmamışdır.

LSP16 şkalasının D bəndinin nəticələrinə əsasən, 15 (50%) nəfərdə yüngül, 15 (50%) orta səviyyədə çətinliklər aşkar olunmuşdur. Ağır səviyyəli çətinlik halına rastlanılmamışdır.

Nəticələrin müqayisəli təhlili.

1. DASS21 şkalasına əsasən əməliyyatdan əvvəl və sonrakı depressiya səviyyəsində statistik əhəmiyyətli fərq aşkarlanmışdır p=0,000 (Cədvəl 15).
2. DASS21 şkalasına əsasən əməliyyatdan əvvəl və sonrakı təşviş səviyyəsində statistik əhəmiyyətli fərq aşkarlanmışdır p=0,000 (Cədvəl 16).
3. DASS21 şkalasına əsasən əməliyyatdan əvvəl və sonrakı stress səviyyəsində statistik əhəmiyyətli fərq aşkarlanmışdır p=0,003 (Cədvəl 17).
4. LSP16 şkalasına əsasən əməliyyatdan əvvəl və sonrakı sosial izolyasiya səviyyəsində statistik əhəmiyyətli fərq aşkarlanmışdır p=0,000 (Cədvəl 18).
5. LSP16 şkalasına əsasən əməliyyatdan əvvəl və sonrakı özünəqulluqda çətinlik səviyyəsində statistik əhəmiyyətli fərq aşkarlanmamışdır p=0,067 (Cədvəl 19).
6. LSP16 şkalasına əsasən əməliyyatdan əvvəl və sonrakı əməkdaşlıqda çətinlik səviyyəsində statistik əhəmiyyətli fərq aşkarlanmışdır p=0,007 (Cədvəl 20).
7. LSP16 şkalasına əsasən əməliyyatdan əvvəl və sonrakı antisosiallıq səviyyəsində statistik əhəmiyyətli fərq aşkarlanmışdır p=0,002 (Cədvəl 21).

Bu araşdırmadan əldə olunan nəticələr onu göstərir ki, bariatrik-metabolik cərrahiyyə əməliyyatı keçirməmiş pasiyentlərə nəzərən bu əməliyyatı keçirmiş pasiyentlərin psixoloji vəziyyətlərində statistik əhəmiyyətli fərqlər vardır. Bu da o deməkdir ki, fərziyyələrimiz öz təsdiqini tapmışdır. Belə ki, nəticələrdən aydın olduğu kimi DASS21 vasitəsilə yoxladığımız pasiyentlərin psixoloji xüsusiyyətləri – depressiya, təşviş və stress səviyyələrində müsbət dinamika müşahidə olunur. Həmçinin, LSP16 sorğusu vasitəsilə dəyərləndirdiyimiz pasiyentlərin həyati bacarıqlarının profilində nəzərəçarpacaq dərəcədə yaxşılaşma aşkarlanmışdır.

Bu qənaətə gəlirik ki, bariatrik-metabolik cərrahiyyə əməliyyatına göstərişli pasientlərlə həm əməliyyatdan əvvəl, həm də əməliyyatdan sonrakı dövrdə psixoloji dəyərləndirmələr aparılmalı, ehtiyac halında psixokorreksiya tədbirləri görülməlidir.

**Məqalənin aktuallığı.** Morbid piylənməsi olan insanların əhəmiyyətli dərəcədə arıqlamasını təmin edən bariatrik-metabolik cərrahiyyə əməliyyatı bütün dünyada getdikcə populyarlaşır. Çünki, bu əməliyyat ciddi sağlamlıq problemi olan insanlar üçün ən təsirli və ən sürətli kütlə azaltmaq üsuludur. Eyni zamanda, cərrahi metodun effektivliyi həmişə proqnozlaşdırıla bilməz, çünki ona müxtəlif amillər, o cümlədən, xəstənin psixoloji vəziyyəti təsir göstərir. Bu nöqteyi-nəzərdən piylənmə ilə psixi sağlamlıq arasındakı əlaqəni anlamaq vacibdir. Bu nöqteyi-nəzərdən piylənmə ilə psixi sağlamlıq arasındakı əlaqəni anlamaq vacibdir. Bariatrik cərrahiyyənin müsbət tibbi nəticələrilə əlaqədar digər piylənmə müdaxilələrinə görə daha çox effektivliyinə baxmayaraq, əməliyyatdan sonra davam edən psixoloji problemlər ətrafında araşdırmalar azdır. Bu, əməliyyatdan əvvəl psixi pozuntu riskinin skrininq sayından fərqli olaraq, əməliyyatdan sonrakı psixoloji monitorinqin, ümumiyyətlə, olmaması ilə əlaqədar ola bilər.

**Məqalənin elmi yeniliyi.** Bu çalışmanın nəticəsində ölkəmizdə getdikcə populyarlıq qazanan bariatrik-metabolik cərrahiyyə əməliyyatına hazırlaşan pasiyentlərin psixi sağlamlıq xüsusiyyətlərinin vacib rolunun aşkar edilməsi nəzərdə tutulmuşdur.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** Bariatrik-metabolik cərrahiyyə əməliyyatına hazırlaşan pasiyentlərin psixi sağlamlıq xüsusiyyətlərinin aşkar edilməsi gələcəkdə əməliyyata göstərişli pasiyentlərin pre- və postoperasion dövrlərdə psixoloji vəziyyətinin nəzarətdə saxlanılmasında vacib rol oynaya bilər.

## Ədəbiyyat

1. Марголин М., Шмелёва Н., Марголина Е., Пликшс А., Трофимович Г. Дооперационная психологическая оценка. Москва, 2019.

2. Colquitt, J.L., Pickett, K., Loveman, E. and Frampton, G.K. Surgery for weight loss in adults. The Cochrane Library. 2014.

3. Psychologıcal Issues (M Hetherıngton And V Drapeau, Sectıon Edıtors) - Doı 10.1007 /S13679-017-0242-2 - Psychological Aspects Of Bariatric Surgery As A Treatment For Obesity Sandra Jumbe 1 • Claire Hamlet2 • Jane Meyrick3 Published Online: 27 February 2017.

4. D.B. Sarwer, R.J. Dilks, and S. Ritter, Bariatric Surgery for Weight Loss. Encyclopedia of Body Image and Human Appear-ance, vol. 1, Academic Press, San Diego, Calif, USA, 2012.

5. The Impact of Bariatric Surgery on Psychological Health - Jeremy F. Kubik,1 Richdeep S. Gill, 2 Michael Laffin, 2 and Shahzeer Karmali 2, 3 - Received 29 January 2013; Accepted 12 March 2013.

**К.Н. Агазаде**

## Особенности психического здоровья пациентов, перенесших бариатрически-метаболические операции

## Резюме

Статья посвящена изучению психических расстройств у пациентов с ожирением, PubMed, Scopus и др. использовались базы данных. Исследована и проанализирована научная литература. DASS21 и LSP16 были выбраны для использования в нашем исследовании, потому что депрессия, тревога, стресс и психосоциальные трудности чаще встречались у пациентов, перенесших бариатрически-метаболическую операцию. Шкала DASS21 (Шкала депрессии, тревоги и стресса - 21 пункт) (DASS-21) использовалась для измерения настроения, тревожных расстройств и уровня стресса, а шкала LSP16 (Профиль жизненных навыков (LSP-16)) использовалась для определения уровня жизни. профиль навыков).

**C.N. Agazade**

# Features of mental health of patients undergoing bariatric-metabolic surgery

## Summary

The article deals with the study of mental disorders in obese patients, PubMed, Scopus and others. databases were used. Scientific literature has been researched and analyzed. DASS21 and LSP16 were selected for use in our study because depression, anxiety, stress, and psychosocial difficulties were more common in patients undergoing bariatric-metabolic surgery. The DASS21 (Depression, Anxiety and Stress Scale - 21 Items) (DASS-21) scale was used to measure mood, anxiety disorders and stress levels, and the LSP16 (Life Skills Profile (LSP-16) scale was used to determine the life skills profile). has been.

**Redaksiyaya daxil olub:** 06.06.2022